# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TARİX ELMİ

**İlqar Abdullayev**
*Bakı şəhəri, Nərimanov rayonu, MLK – nın tarix müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru, əməkdar müəllim.*

## HAYDER ALIYEV AND AZERBAIJAN SCIENCE OF HISTORY

**Ilgar Abdullayev**

**Summary**

This article deals with great nationwide leader Heydar Aliyev"s care to the development of science of history and its preservation when he was in power. Besides it, preservation of our a number of cities and residential areas of great importance and their transmission to future generations have found their reflections in this article as well.

**Key words:** Haydar Aliyev, history, history of Azerbaijan, Qabala, Ordubad

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TARİX ELMİ

**İlqar Abdullayev**

**Xülasə**

Bu məqalə ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə tarix elminin inkişafına və onun qorunub saxlanmasına göstərdiyi qayğıdan bəhs edir. Bununla yanaşı, böyük əhəmiyyət kəsb edən bir sıra şəhər və yaşayış massivlərimizin qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması bu məqalədə də öz əksini tapmışdır.

**Açar sözlər:** Heydər Əliyev, tarix, Azərbaycan tarixi, Qəbələ, Ordubad

## ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНСКАЯ ИСТОРИЧЕСКАЯ НАУКА

**Ильгар Абдуллаев**

**Аннотация**

В данной статье рассказывается о заботе Великого Лидера Гейдара Алиева об Азербайджане во время его руководства нашей Республикой. Также здесь находит отражение сохранение многих наших древних поселений и их передача будущим поколениям.

**Ключевые слова:** Гейдар Алиев, история, история Азербайджана, Габала, Ордубад

**Giriş.** Xalqımızın Ümummilli lideri səviyyəsinə yüksəlmiş Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin ilk günlərindən onun genişmiqyaslı fəaliyyətində Azərbaycan tarixi və mədəniyyətinin öyrənilməsi, öyrədilməsi, müxtəlif problemlərinin tədqiqi və təbliği məsələləri ön planda durmuşdur. [5]

Azərbaycan tarixinin bir sıra aktual məsələlərinin, o cümlədən xalqımızın mənşəyi, dövlətçiliyimizin təşəkkülü və formalaşması, şanlı keçmişimizin ümumdünya tarixində yeri və sair bu kimi mühüm tarixi problemlərin hərtərəfli, dərindən, ən başlıcası obyektiv tədqiqini Ulu Öndər ölkəmizə rəhbərliyinin hər iki dövründə tarixçilər qarşısında aktual və təxirəsalınmaz vəzifə kimi qoymuşdu. Ulu Öndər şanlı ömür yolu ilə, o çümlədən, iki dəfə hakimiyyətdə olduğu gərgin və yorulmaz dövlətçilik fəaliyyəti illərində xalqı üçün həm şanlı tarix yaratdı, həm də tarixçi dövlət xadimi olaraq milli tariximizə yeni baxış konsepsiyası işləyib hazırladı.(3, s.5).

Məxsus olduğu xalqın tarixinə dərindən maraq göstərən Heydər Əliyev bu sahədə aparılan genişmiqyaslı işlərin qanun çərçivəsində yerinə yetirilməsini təmin etmək məqsədi ilə Azərbaycan SSR Ali Sovetinin 21 iyul 1978-ci il tarixli sessiyasında "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında Azərbaycan SSR Qanunu"nun qəbul olunmasına, 27 yanvar 1982-ci ildə isə Azərbaycan Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi Cəmiyyətinin Nizamnaməsinin Azərbaycan SSR Nazirlər Sovetində təsdiq edilməsinə nail oldu.[5] Beləliklə, ölkə ərazi-

sindəki tarix və mədəniyyət abidələrinin bərpası, tədqiqi və qorunması məsələsi qanun və qərarlarla rəsmiləşdirildi, bu sahədə cavabdeh təşkilatların vəzifələri müəyyənləşdirildi, məsuliyyətləri artırıldı.

1969-cu ilin sentyabr ayında “Kommunist” (indiki “Xalq qəzeti”) qəzetinin, 1969-cu il noyabrın 1-də Azərbaycan Dövlət Universitetinin (indiki BDU) 50 illik yubileylərində Azərbaycan dilində çıxış edən respublikanın yeni rəhbəri Heydər Əliyev bir il sonra, Azərbaycan Pedaqoji İnstitutunun (indiki APU) yarıməsrlik yubileyində Azərbaycan tarixinin tədrisi məsələsindən bəhs etmiş, bununla əlaqədar tapşırıqlar vermişdi.[5] Bundan sonra aparıcı ali məktəblərdə “Azərbaycan tarixi” kafedraları yaradılmış, fənnin tədrisinə ayrılan saatların miqdarı artırılmışdı. Bu məqsədlə ali və orta məktəblər üçün dərsliklər, proqramlar hazırlanmağa başlanmışdı.[5]

Ulu Öndərin Azərbaycan Prezidenti kimi bu birbaşa tapşırığı ilə çoxcildliyin düz bir il sonra, 1998-ci ildə başlanan nəşri 2003-cü ildə başa çatdı. Görünür, bu da taleyin bir qisməti imiş ki, Azərbaycan tarixinin çoxcildliyinin keçən yüzillikdə baş tutmayan nəşri Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra gerçəkləşdi. Ulu öndərin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il, “Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında” 9 avqust 2001-ci il və “Azərbaycan Respublikasında Dövlət dili haqqında” 2 yanvar 2003-cü il tarixli sərəncamlarından sonra çoxcildlik Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə latın əlifbası ilə 2007-2008-ci illərdə yenidən işıq üzü gördü.

Azərbaycanın tarixi coğrafiyasının öyrənilməsini yüksək qiymətləndirən Heydər Əliyevin hakimiyyətinin ilk illərində bilavasitə onun tapşırığı ilə Azərbaycan və rus dillərində “Azərbaycan SSR xəritələri” adlı atlas nəşr edildi. Həmin vaxt əleyhdarlarımız tərəfindən böyük səs-küylə qarşılanan atlas “Azərbaycan SSR xəritələri” adlansa da, orada Azərbaycan tarixinin qədim dövrlərindən başlayaraq 70-ci illərədək olan zaman çərçivəsinin xəritələri əks olunmuşdu.

Azərbaycan arxeoloji irsinə və maddi-mədəniyyət nümunələrinə böyük maraq göstərən, onlara hörmət və ehtiramla yanaşan, diqqət və qayğısını əsirgəməyən ümummilli lider Heydər Əliyev Moskvada, SSRİ-nin ali rəhbərliyində işlədiyi zaman doğma yerlərə - Azərbaycana gələndə vaxtının məhdud olmasına baxmayaraq, ölkə ərazisində indiyədək qalan tarix-mədəniyyət abidələrini də ziyarət edirdi. 1983-cü ilin sentyabrında Azərbaycanda olarkən qədim mədəniyyət, elm, təhsil, ticarət və sənətkarlıq mərkəzlərindən biri olan Şabran şəhərinə getmiş, orada arxeoloji tədqiqatlarla tanış olmuş və bu işin genişləndirilməsini tövsiyə etmişdi. Bundan sonra, Şabranda bir neçə arxeoloji ekspedisiya fəaliyyətə başlamışdı. Həmçinin, həmin vaxt respublika rəhbərliyinə Azərbaycanın orta əsr şəhərlərinin tarixinin hərtərəfli öyrənilməsinin gücləndirilməsi haqqında tapşırıqlar verilmişdi. Tapşırıqlara uyğun olaraq, bir sıra Azərbaycan şəhərlərinin (Gəncə, Bərdə, Naxçıvan, Qəbələ və s.) qədim və orta əsrlər dövrü tarixinin sistemli şəkildə öyrənilməsi üçün arxeoloji ekspedisiyalar işə başlamış, aparılan tədqiqatların nəticəsi olaraq monoqrafiya və məqalələr yazılmışdı.

Heydər Əliyevin Azərbaycan tarixinə yeni baxış konsepsiyasında əsas yerlərdən biri Azərbaycan Xalq Cümhuriyyəti tarixinə həsr olunmuşdur. Bu baxımdan Xalq Cümhuriyyətinin tarixinin obyektiv öyrənliməsi və onun Azərbaycan tarixində yerinin müəyyən edilməsi Ulu Öndər Heydər Əliyevin XX əsr Azərbaycan tarixinin tədqiq edilməsi sahəsində qarşıya qoyduğu vəzifələrin mühüm bir hissəsidir.[4s.114] Göstərmək yerinə düşərdi ki, Naxçıvanın, Qarabağın, İrəvanın həm hərbi, həm siyasi müdafiəsi məsuliyyəti Xalq Cümhuriyyəti hökuməti rəhbərlərinin üzərinə düşürdü. Tarixin acı bənzərliyi ondadır onda idi ki, sonralar Heydər Əliyev də belə bir məsuliyyəti öz üzərinə götürmüşdü. Belə ki, Ümumilli liderin 1999 – cu il fevralın 4-də “Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin qeyd olunması haqqında” fərmanında deyilirdi: “1918 – ci il mayın 28–də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması elan olundu. Rusiya imperiyasının dağılması nəticəsində Qafqazda öz müstəqilliyini əldə etmiş dövlətlər arasında sərhədlərin dəqiqləşdirilməsi prosesi getdi. Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyskinin məşhur məktubunda bildirilirdi ki, Azərbaycan İrəvan mahalından könüllü surətdə əl çəkir. Azərbaycan hökuməti bu güzəştə getməklə Ermənistanın ölkəmizə qarşı torpaq iddialarından əl çəkəcəyini zənn etdi.[2]

Məlumdur ki, müsəlman Şərqində qadınlara ilk dəfə siyasi hüquqların verilməsi də Azərbaycan

Xalq Cümhuriyyəti tarixinin şanlı hadisələrindəndir. 1998 –ci ildə Azərbaycan qadınlarının birinci qurultayında Ulu Öndərimiz bu hadisəni yüksək qiymətləndirərək demişdir: “Azərbaycan qadını zülmlər, əziyyət çəkib, ana olub, övlad böyüdüb, kişisinə xidmət edib, ailəsini, elini – obasını saxlayıbdır, çox hüquqlqrdan məhrum olubdur. 1918 – 1919-cu illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan qadınına tarixdə ilk dəfə hüquqlar – seçmək və seçilmək hüququ verilibdir”. [1]

Ulu Öndərimizin Azərbaycan tarixinin müxtəlif, xüsusilə AXC dövrünə aid söyləmiş olduğu yuxarıda göstərdiyimiz bütün misallar bir daha sübut edir ki, o, Azərbaycan tarixinin mahir bilicisi olmaqla yanaşı, həm də tariximizin daha da dərindən, möhkəm – məhkəm öyrənilməsi və tədqiq edilməsinin tərəfdarı olmuş, arxeoloji tapıntıların, bir sözlə qədim tarixə aid bütün eksponatların qayğı ilə qorunub saxlanılması üçün əlindən gələni etmiş, bu barədə kifayət qədər qərarlar və fərmanlar vermişdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan qadınlarının birinci qurultayında nitqi //Respublika sarayı, 15 sentyabr 1998 –ci il//Beynəlxalq Elektron Kitabxana – Heydər Əliyev irsini araşdırma mərkəzi//www.aliyevheritage.org

2. Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı//Bakı şəhəri, 4 fevral 1999 –cu il № 89 //Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 1999

3. Hüseynova L. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. (Müstəqillik dövrü). Bakı,”Təhsil”, 2011, 216 səh.

4. Bayramov Q. Heydər Əliyev və Azərbaycan tarix elmi/əlmi red:İ. Hüseynova; rəy: A.Məmmədov, İ.Zeynalov.-Bakı:Təhsil, 2004. -264 səh.